**Əbdüləziz əl-Tüveycri: COP29 böyük imkanlara malik ölkədə keçiriləcəyinə görə uğurlu olacaq**

Bütün dünya əhalisinin ərzaq təhlükəsizliyi təmin olunmalıdır. Aclıq və müharibələrin hökm sürdüyü ölkələri dəstəkləmək bizim əsas istiqamətlərimizdən olmalıdır. COP29-un bu istiqamətdə atılan mühüm addım olacağına inanıram.

AZƏRTAC xəbər verir ki, bu barədə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) sabiq Baş direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Əbdüləziz əl-Tüveycri "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı çərçivəsində təşkil edilən "Ərzaq və kənd təsərrüfatı sektorunun xüsusi halı" mövzusunda panel müzakirələrində çıxışında deyib.

COP29-un əhəmiyyətini vurğulayan Əbdüləziz əl-Tüveycri bildirib ki, bu tədbir bütün dünya dövlətləri aclıq və müharibələrdən əziyyət çəkən dövlətləri dəstəkləməyə çağırmaq üçün bir addımdır. Ərzaq çatışmazlığından əziyyət çəkən ölkələri dəstəkləmək bütün bəşəriyyət gələcəyinə verəcəyimiz dəstəkdir", - deyə o əlavə edib.

ICESCO-nun sabiq Baş direktoru deyib ki, COP29 böyük imkanlara malik ölkədə keçiriləcəyinə görə uğurlu olacaq.

**AZƏRTAC**
**2024, 20 iyun**